***Beynəlxalq və regional təşkilatlarla aparılan ardıcıl və məqsədyönlü iş Azərbaycanın bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilməsində xususi rol oynayıb. Nəticədə son illər ərzində ölkəmizin BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da möhkəmlənib.***

# Azərbaycan beynəlxalq təşkilatlarda etibarlı tərəfdaş kimi qəbul edilir



Azərbaycanın beynəlxalq təşkilatlarda etibarlı tərəfdaş kimi qəbul edilməsində Qoşulmama Hərəkatındakı sədrlik fəaliyyəti də önəmli rol oynayıb. Qeyd edək ki, Prezident İlham Əliyev bu nüfuzlu qurumun güclənməsinə önəmli töhfələr verib. Dövlətimizin başçısı qlobal çağırışların həlli istiqamətində təşəbbüsləri və səmərəli fəaliyyəti ilə Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının dünyada rolu və nüfuzu daha da yüksəlib.

Təşkilata üzv dövlətlərin yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il – 2023-cü ilin sonuna qədər uzadılması barədə qərarı Prezident İlham Əliyevin dünyadakı nüfuzunun daha bir göstəricisi, ölkə rəhbərinin şəxsiyyətinə verilən yüksək dəyərin ifadəsidir. Ölkəmizin uğurlu inkişafı da bu gün bütün dünyada etiraf edilir, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal layihələrdən bəhs olunur, aparılan islahatların iqtisadiyyatın daha da güclənməsinə təkan verdiyi vurğulanır. Eyni zamanda, Azərbaycanın Mərkəzi Asiya və Xəzəryanı dövlətlər arasında iqtisadiyyatı ən sürətlə inkişaf edən bir respublika olduğu, investisiyanın təşviqi mexanizminin reallaşdırıldığı və əlverişli investisiya mühitinin yaradıldığı, təbii sərvətlərlə, xüsusilə neft və qaz ilə zəngin diyar kimi tanındığı diqqətə çatdırılır.

Yeri gəlmişkən, bu ilin ötən ayları ərzində Azərbaycanın bir sıra dünya ölkələri ilə diplomatik əlaqələrinin qurulmasının 30 ili tamam oldu.

***(ardı 3-cü səhifədə)***

# Azərbaycan beynəlxalq təşkilatlarda etibarlı tərəfdaş kimi qəbul edilir

*(əvvəli 1-ci səhifədə)*

Bununla əlaqədar xarici dövlət başçıları tərəfindən Prezident İlham Əliyevə ünvanlanan təbrik məktublarında, telefon zənglərində respublikamızın beynəlxalq münasibətlər sistemində özünü layiqli tərəfdaş kimi təsdiqlədiyi bildirildi. Bu, İtaliya Respublikasının Nazirlər Şurasının Sədri Mario Draqin, Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson və digər rəsmi şəxslərin səsləndirdikləri fikirlərdə öz ifadəsini tapdı, ölkəmizin regiondakı böyük rolu yüksək qiymətləndirildi. Həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə verdiyi töhfələr yüksək dəyərləndirildi.

Azərbaycan beynəlxalq təşkilatlarda etibarlı tərəfdaş kimi qəbul edilməsi Vətən müharibəsində Azərbaycanın ədalətli mövqeyinin dost və qardaş ölkələr, eləcə də bir çox beynəlxalq təşkilatlar tərəfindən müdafiə edilməsi, siyasi və mənəvi dəstək göstərilməsində də önəmli rol oynayıb. Nəticədə ölkəmiz yeni güc mərkəzlərinə və yeni ittifaqlara qoşulmaqla mövqeyini daha ödəmək üçün istehsalı gücləndirib və paralel olaraq bu məhsulların dünya bazarlarına ixracını həyata keçirib.

Azərbaycan hazırda beynəlxalq aləmdə etibarlı tərəfdaşlığını daha da möhkəmlətmək üçün ayr-ayrı dövlətlərlə münasibətlərin dinamik inkişafına xüsusi əhəmiyyət verir. Prezident İlham Əliyevin təkcə son vaxtlarda bir sıra ölkələrin rəsmi şəxslərini respublikamıza səfərləri çərçivəsində qəbul edərkən səsləndirilən fikirlər, eləcə də dövlətimizin başçısına ünvanlanan təbrik məktublarında, telefon zənglərində ifadə olunan münasibətlər yuxarıda qeyd olunanları bir daha təsdiqləyir. Bu, əslində, Prezident İlham Əliyevin haqqədalət uğrunda mübarizəsinin təntənəsi, yürütdüyü müstəqil siyasətin məntiqi nəticəsi kimi diqqət çəkir.

Azərbaycanın uğurlu xarici siyasətinin nəticəsidir ki, bu gün aparıcı mövqeyə malik olan dünyanın nüfuzlu dövlətlərinin, eləcə də beynəlxalq və regional təşkilatların bir çoxu beynəlxalq münasibətlər sistemində respublikamızın tərəfdaşı kimi çıxış edir.

Azərbaycan beynəlxalq təşkilatlarda etibarlı tərəfdaş kimi qəbul olunması ilə



da gücləndirib. Sirr deyil ki, bu reallıq, belə bir mövcud şərait təhlükəsizlik və tərəfdaşlıq müstəvisində maraqların koordinasiya edilməsi və uzlaşdırılmasından irəli gəlib. Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ötən il iyun ayında Azərbaycana səfəri çərçivəsində Şuşada Prezident İlham Əliyevlə birgə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin, həmçinin Azərbaycan, Türkiyə və Pakistan parlamentləri arasında Bakı Bəyannaməsinin imzalaması da məhz Cənubi Qafqazı sülh regionuna çevirmək məqsədi daşıyıb və tarixi hadisəyə çevrilib.

Bu cür xoşməramlı addımlar qalib Azərbaycanın sözünün daha kəsərli olmasını, dost ölkələrin sayının günbəgün artmasını və beynəlxalq hüququn onun yanında olmasını reallaşdırıb, respublikamızı artıq regionda sülhün, təhlükəsizliyin, açıq, konstruktiv, bərabərhüquqlu əməkdaşlığın, sözün əsl mənasında, qarantı kimi çıxış edən dövlət kimi tanıdıb.

Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşlığı ayr-ayrı dövlətlərlə iqtisadi münasibətlərin dinamik inkişafında da özünü qabarıq biruzə verir. Məsələn, yuxarıda adları çəkilən Böyük Britaniya və İtaliya hazırda ölkəmizə ən çox investisiya yatıran ölkələr kimi diqqət çəkir. Bu dövlətlərə məxsus şirkətlər tərəfindən Azərbaycanın qeyri-neft sektoruna geniş həcmdə investisiyalar yatırılır. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərimizdə yeni layihələrin icrasında həmin ölkələrin şirkətləri yaxından iştirak edirlər. Bütün bu faktlar isə deməyə əsas verir ki, Azərbaycan dünya dövlətlərinin strateji əməkdaşlıq etmək istədiyi nüfuzlu və etibarlı ölkədir.

Onu da xatırladaq ki, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr icra olunub.

Yeri gəlmişkən, istər Azərbaycanın yeni müstəqilliyinin ulu öndər Heydər Əliyev dönəmində, istərsə də dövlətimizin başçısı İlham Əliyevin ölkəyə rəhbərliyi zamanında bir sıra xarici dövlət şirkətləri ilə müqavilələr imzalanıb və bunların, demək olar ki, hamısı dəyişdirilmədən, müddəalarına toxunulmadan uğurla reallaşdırılıb. Ölkə rəhbəri çıxışlarının birində vurğuladığı kimi, 1994-cü ildə həyata vəsiqə alan və uzun illərdir ki, uğurla icra edilən "Əsrin müqaviləsi"ndə indiyədək bir söz, hətta bir vergül belə dəyişdirilməyib. Məhz bunun nəticəsidir ki, ötən dövr ərzində Azərbaycana 10 milyardlarla dollar həcmində xarici sərmayə qoyulub. Bu, hazırda da uğurla davam edir.

Azərbaycanın xarici iqtisadi əlaqələrində enerji layihələrinə xüsusi önəm verməsi təsadüfi deyil. Çünki respublikamız müstəqillik dövründə uzun illər ərzində enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb, bu istiqamətdə bir sıra layihələri uğurla gerçəkləşdirib. Azərbaycan, eyni zamanda, dünya miqyasında nadir ölkələrdəndir ki, elektrik enerjisi ilə bərabər, həm də xam neft, təbii qaz, neft məhsulları ilə daxili tələbatı tam bağlı ən mühüm məqamlardan biri də odur ki, ölkəmiz istər işğal dövründə, istərsə də indiki postmüharibə mərhələsində daim sülhün, əmin-amanlığın tərəfdarı kimi fəaliyyət göstərib. Prezident İlham Əliyev çıxışlarında Vətən müharibəsinin parlaq qələbəmizlə başa çatması ilə Cənubi Qafqazda yeni geosiyasi proseslərin başladığını, regionun tarixində yeni eranın əsasının qoyulduğunu xatırlatmaqla, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasının zəruriliyini dəfələrlə vurğulayıb, bölgədə təhlükəsizlik mühitinin, davamlı sabitliyə və əmin-amanlığa əlverişli şərait yaranmasının məhz bu amillə bilavasitə bağlı olduğunu qeyd edib. Ona görə də Ermənistana sərhədlərin demarkasiyası üzərində işləməyə başlamağın, delimitasiya üzrə birgə işçi qrupu yaratmağın və ərazidə bütün mübahisələri masa üzərində aydınlaşdırmağın təklif edildiyini, lakin bu ölkənin vurğulanan məsələlərə laqeyd münasibət bəslədiyini diqqətə çatdırıb.

Ölkə rəhbərinin bu məsələyə xüsusi önəm verməsi həm də onunla əlaqədardır ki, region dövlətlərinin yeni əməkdaşlıq formatının qurulması və Zəngəzur dəhlizinin yaradılması kimi layihələrin reallaşması üçün, ilk növbədə, Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyasının aparılması vacib şərtlərdən biridir. Digər tərəfdən isə bu prosesin gerçəkləşdirilməsi sülh sazişinin imzalanmasında önəmli rol oynayır.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi regionda əməkdaşlıq üçün yeni imkanlar yaratması baxımından vacib olmaqla yanaşı, bölgədə davamlı sülhün qorunub saxlanılması cəhətdən də mühüm önəm daşıyır. Regionun kifayət qədər iqtisadi potensialı var. Bu da regional dəhlizlərin əhəmiyyətini daha da artırır. Daha geniş anlamda region ölkələrindən Türkiyə və Rusiya "Böyük iyirmiliyə" üzv olan ölkələrdir. Söhbət üç trilyon dollarlıq ümumi daxili məhsulu olan region ölkələrinin Zəngəzur dəhlizindən istifadədən gedir.

Digər tərəfdən, Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanı regionun nəqliyyat qovşağına çevirəcək. Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına həm də maliyyə dəstəyi göstərir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Bu yol xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmin olunması baxımından əhəmiyyətli olacaq.

Yuxarıda qeyd olunanlar Azərbaycanın hazırda dünyada güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin, davamlı inkişafın təmin edildiyi respublika kimi tanındığını deməyə əsas verir. Ölkəmizin inkişafının, nailiyyətlərinin əsasında isə dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bunun nəticəsidir ki, xalqımız dövlətimizin başçısının həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 27 aprel.- S.3.